Avropa İttifaqının Azərbaycanın Lənkəran-Astara İqtisadi Rayonuna Dəstəyi

Avropa İttifaqı tərəfindən maliyyələşdirilir

## “EU4LANKARAN” LAYİHƏ XƏBƏRİ

İyun 2024 9-cu hissə

# MASALLIDA POMİDOR İSTEHSALININ GÜCLƏNDİRİLMƏSİ: DİQQƏT MƏRKƏZİNDƏ OLAN ƏSAS PROBLEMLƏR VƏ ARTIM



Pomidor sahəsi, Masallı rayonu

Nəşrlərin davamı olaraq bu nəşrdə Aİ4Lənkəran layihəsi çərçivəsində hazırlanmış Masallıda Pomidor Dəyər Zəncirindən bəhs edilir. Lənkəran-Astara İqtisadi Rayonunun Masallı rayonunda pomidorun dəyər zənciri mühüm dəyişikliklərə məruz qalır və bir sıra problem və çətinliklərlə üzləşir. Regionun əsas rayonlarından biri olan Masallı pomidor istehsalının vacib hesab edildiyi güclü kənd təsərrüfatı bazasına malikdir.



Pomidor şitilinin əkilməsi, Masallı

Əlverişli iqlim şəraitinə və münbit torpağa malik olan Masallı rayonu uzun müddətdir ki, pomidor yetişdirilməsi üçün əsas istehsal mərkəzi olmuşdur. Habelə, pomidor əkilən sahə uzun illər ərzində dəyişmişdir. 2000-ci ildə 829 hektardan 2019-cu ilə qədər 444 hektara qədər azalmış, 2022-ci ilə qədər bir qədər artaraq 525 hektar olmuşdur. Bu dəyişikliklərə baxmayaraq, rayonda məhsuldarlığın artması göstəriciləri müşahidə olunmağa davam edir. 2022-ci ildə Masallıda pomidorun məhsuldarlığı bir hektara 33,100 kg-a çatmışdır, bu rəqəm region üzrə orta göstəricidən daha yüksəkdir.

Son tədqiqatların əsas nəticələrindən biri ondan ibarətdir ki, Masallıda kənd təsərrüfatı təcrübələri artırılmalı və infrastruktur təkmilləşdirililməlidir. Fermer təsərrüfatlarının kiçik olması, bölünməsi və ilkin resurslardan istifadə məhdudluğu vacib problemlər hesab olunur. Rayonun əsasən yüksək pH-a malik olan torpaqları optimal pomidor yetişdirilməsinin təmin olunması üçün xüsusi tədbirlərin görülməsinə ehtiyac duyur. Habelə, Masallıda torpağın yoxlanması üçün yerli laboratoriyanın olmaması səbəbindən fermerlər prosesə əlavə vaxt ayırmaqla və səy göstərməklə, Lənkərandakı avadanlıqlara üz tutmalı olur. Bundan başqa, gübrə tətbiqi üzrə müvafiq təlimlərin olmaması torpaq keyfiyyətinin deqradasiyasına gətirib çıxarmışdır.

# “EU4LANKARAN” LAYİHƏ XƏBƏRİ

Bu çətinliklərə baxmayaraq, yerli fermer İlkin Şükürov son onillikdə pomidor yetişdirilməsi sahəsində mühüm nailiyyətlər əldə etmişdir. Cənab Şükürov Şərəfə kəndi yaxınlığındakı kənd təsərrüfatı landşaftını tam dəyişdirmək qərarına gəlmişdir. Ailəsinin güclü dəstəyi və müxtəlif maliyyə resursları ilə o, müasir infrastruktur və avadanlıqlara güclü investisiya qoymaqla, istixana şəraitində pomidor istehsalının həyata keçirilməsi layihəsinə başlamış, 2 hektardan ibarət müasir istixanalar və 1200 ton tutuma malik soyuducu anbar tikmişdir. Onun layihəsi yerli kənd təsərrüfatının inkişafına təkan vermiş və bununla da, cəmiyyətin iqtisadi inkişafını stimullaşdıran 20 mövsümi vakansiyadan ibarət olan 60 yeni iş yeri yaradılmışdır.

Hesabatda Masallının iqlim və torpaq şəraitinə uyğunlaşdırılmış yüksək keyfiyyətli toxumlarla təmin edən nüfuzlu şirkətlərin yer aldığı strukturlaşdırılmış toxum bazarına ehtiyac olduğu xüsusilə qeyd olunur. Bu meyar daxili bazarların, eyni zamanda da beynəlxalq bazarların tələblərinə cavab verə biləcək davamlı istehsalı təmin edən pomidorun həm keyfiyyətini, həm də məhsuldarlığını yaxşılaşdıra bilər. Masallıda pomidor istehsalını dəstəkləmək üçün “Aİ4Lənkəran” layihəsinin rayonda Pomidor Nümayişi Sahələrinin yaradılması məqsədini daşıyır. Masallının 6 kəndindən olan 8 fermerə təxminən 50000 pomidor şitili paylanılacaq. Təklə kəndində Pomidor Nümayişi Sahəsinin açılış mərasimi 3 iyul 2024-cü il tarixinə planlaşdırılır.



***Pomidor yığımı, Masallı***

Masallı pomidorlarının marketinqi və brendləşdirilməsi sahəsində böyük problemlər müşahidə olunur. Bu əsas məhsula yüksək tələbatın olmasına baxmayaraq, yerli fermerlər adətən bazara çıxış və bazar mövqeyi üçün mübarizə aparır. Qeyd olunan məsələləri həll etmək üçün layihə pomidor istehsalını gücləndirmək və marketinq səylərini artırmaq məqsədilə regional pomidor brendi, bazar perspektivləri və bazarın qısa təsvirini hazırlamaqla, Masallı rayonunu dəstəkləyir.



***Pomidor sahəsi, Masallı***

Bununla yanaşı, layihə Masallı pomidorlarının brendləşdirmə və marketinq strategiyalarını təkmilləşdirmək istiqamətində təşəbbüslər göstərir. Yaxşı kənd təsərrüfatı təcrübələrinin tətbiqini gücləndirməklə, layihə çərçivəsində rayonda istehsal olunan pomidorun keyfiyyətini yaxşılaşdırmaq əsas məqsəd hesab edilir. Bu, yalnız fermerlərə daha yüksək məhsul əldə etməklə fayda vermir, eyni zamanda Masallı pomidorunun həm yerli, həm də beynəlxalq miqyasda bazar rentabelliyini artırır.

“Aİ4Lənkəran” layihəsi çərçivəsində Pomidor İstehsalçıları Qrupu yaradılmışdır və bununla da fermerlər resursları birləşdirmək, qabaqcıl təcrübələri bölüşmək və daha yaxşı qiymətlərlə bağlı danışıqlar aparmaq imkanı ilə təmin olunur. Qrup əməkdaşlığı daha da inkişaf etdirmək və səmərəliliyi artırmaqla məhsuldarlığı və bazara çıxışı gücləndirəcək.

Masallının pomidor dəyər zənciri bir sıra problemlərlə üzləşsə də, “Aİ4Lənkəran” layihəsi kimi təşəbbüslər tərəfindən verilən dəstək əhəmiyyətli təkmilləşdir-mələrə yol açır. Kənd təsərrüfatı təcrübələrinin təkmilləşdirilməsinə, keyfiyyətin artırılmasına, marke-tinq və brendləşdirmə səylərinin gücləndirilməsinə fokuslanmaqla, Masallı rayonu regionun ümumi iqtisadi inkişafına təkan verməklə, pomidor istehsalını əhəmiyyətli dərəcədə artırmaq potensialına malikdir.



***Pomidor yığımı, Masallı***

***“Avropa İttifaqının Azərbaycanın Lənkəran-Astara iqtisadi rayonuna dəstəyi” layihəsi ilə bağlı yeniliklər üçün bizi izləməyə davam edin.***

***Bu material Avropa İttifaqının maliyyə dəstəyi ilə hazırlanmışdır. Məzmun üçün yalnız layihə məsuliyyət daşıyır və Avropa İttifaqının fikirlərini əks etdirmir. Layihə “WeGlobal”ın rəhbərlik etdiyi konsorsium tərəfindən həyata keçirilir.***